*Layihə*[1]

# “Dövlət-biznes tərəfdaşlığı haqqında” Azərbaycan Respublikasının Qanunu

**Maddə 1. Bu qanunun məqsədi, predmeti və tətbiq dairəsi**

**1.1** Bu qanunun məqsədi Azərbaycan Respublikası iqtisadiyyatına dövlət-biznes tərəfdaşlığı əsasında investisiyaların cəlbi üçün hüquqi bazanın yaradılmasıdır.

**1.2** Bu qanun Azərbaycan Respublikası ərazisində dövlət-biznes tərəfdaşlığının dövlət tənzimləməsinin əsaslarını, dövlət-biznes tərəfdaşlığı müqavilələrinin icrası zamanı dövlətin səlahiyyətlərini müəyyən edir.

**1.3** Bu qanun mineral resursların axtarışı, kəşfiyyatı, işlənməsi, dövlət satınalmaları və özəlləşdirməyə şamil olunmur.

**Maddə 2. Azərbaycan Respublikasının dövlət- biznes tərəfdaşlığı sahəsində qanunvericiliyi**

**2.1** Azərbaycan Respublikasının dövlət-biznes tərəfdaşlığı sahəsində qanunvericiliyi bu qanundan, Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunundan, “Xarici investisiyanın qorunması haqqında” Azərbaycan Respublikasının Qanunundan, “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunundan və digər normativ-hüquqi aktlardan ibarətdir.

**Maddə 3. Azərbaycan Respublikasında dövlət-biznes tərəfdaşlığı**

---

[1] Bu layihə “Kiçik Sahibkarlığa Dəstək Layihəsi” çərçivəsində hazırlanıb. Layihənin icraçıları: 1) Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu; 2) İqtisadi Təşəbbüslərə Yardım Mərkəzi; 3) İqtisadi Tədqiqatlar Mərkəzi; 4) Kiçik və Orta Müəssisələrin İnkişafına Yardım Mərkəzi; 5) Gələcəyə Körpü gənclər təşkilatı; 6) Xalça Dünyası Assosiasiyası. Layihə USAİD-nin maliyyələ dəstəyi ilə həyata keçirilir.

**3.1** Azərbaycan Respublikasının bu qanununun məqsədlərinə uyğun olaraq dövlət-biznes tərəfdaşlığı dedikdə, bir tərəfdən dövləti təmsil edən partnyor, digər tərəfdən müsabiqə əsasında seçilmiş biznes partnyor arasında əhaliyə təqdim olunan xidmətlərin keyifiyyətinin yüksəlməsinə, əlçatanlığın təmininə, eyni zamanda, iqtisadiyyata özəl investisiyaların cəlbinə yönəlmiş fəaliyyətləri özündə əks etdirən müqavilə əsasında əməkdaşlıq münasibətləri başa düşülür.

**3.2** Bu qanunun məqsədlərinə uyğun olaraq biznes partnyor dövlət şirkətləri və korporasiyaları istisna olmaqla qanunvericiliyə zidd olmayan sahibkarlıq fəaliyyəti ilə məşğul olan milli və ya xarici hüquqi şəxslər hesab edilir.

**3.3** Bu qanunun məqsədlərinə uyğun olaraq dövlət-biznes tərəfdaşlığında dövləti təmsil edən partnyor Azərbaycan Respublikasının hökumətidir. Dövlət-biznes tərəfdaşlığında Azərbaycan Respublikasının maraqlarını hökumətin qərarına uyğun olaraq müvafiq mərkəzi icra hakimiyyəti orqanları təmsil edə bilərlər.

**3.4.** Dövlət-biznes tərəfdaşlığı Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq hazırlanmış, özündə tərəflərin hüquq, vəzifə və öhdəliklərini, məsuliyyət və risklərini əks etdirən müqavilə əsasında həyata keçirilir.

**3.5** Bu qanuna müvafiq olaraq dövlət-biznes tərəfdaşlığı konsessiya müqaviləsi formasında və Azərbaycan Respublikası qanunvericiliyi ilə qadağan olunmamış digər formalarda həyata keçirilə bilər.

**Maddə 4. Dövlət-biznes tərəfdaşlığının tətbiqi sferaları**

**4.1** Dövlət-biznes tərəfdaşlığı aşağıdakı sferaların infrastruktur obyektlərində və (və ya) infrastruktur xidmətlərində həyata keçirilə bilər:

- Elektrik və istilik enerjisi istehsalı, verilişi və bölüşdürülməsi;
- Neft və təbii qazın emalı, saxlanması, daşınması və bölüşdürülməsi;
- Avtomobil, dəmir yolları, su, hava, şəhərdaxili elektrik nəqliyyatı;
- Kommunal təsərrüfatı və kommunal xidmətlər;
- Səhiyyə sistemində tibbi, müalicə-profilaktik və digər fəaliyyətlər;
- Təhsil, tərbiyə, mədəniyyət və sosial xidmətlər;
- Hərəkət edən və stasionar rabitə və telekommunikasiya;
- Turizm, istirahət və idman;
- Su resursları;
- İstehlakçıların geniş dairəsinə xidmət göstərən digər sferalar.

**4.2** Dövlət-biznes tərəfdaşlığı, siyahısı Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş infrastruktur obyektləri və infrastruktur xidmətləri istisna olmaqla digər infrastruktur obyektlərində və infrastruktur xidmətlərində tətbiq oluna bilər.

**Maddə 5. Dövlət-biznes tərəfdaşlığının prinsipləri**

**5.1** Azərbaycan Respublikasında dövlət-biznes tərəfdaşlığı aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

- **Qanunun aliliyi.** Dövlət orqanları, onların vəzifəli şəxsləri tərəfindən qanunlara və müvafiq hüquqi-normativ aktlara ciddi əməl olunması;
- **Ədalətlilik.** Tender içtirakçılarına bərabər yanaşma, biznes partnyorun seçimində obyektivliyə və tərəfsizliyə əməl olunması, dövlət və biznesin vicdana və qaşılıqlı faydalılığa əsaslanan tərəfdaşlığı, səlahiyyətlərin, məsuliyyət və risklərin razılaşdırılmış bölgüsü, qanun qarşısında dövlət və biznesin bərabərliyi;
- **Şəffaflıq.** Dövlət-biznes tərəfdaşlığının bütün mərhələlərində informasiyanın əlçatanlığının təmin olunması;
- **Rəqabətlilik.** Müsabiqə zamanı diskriminasiya və məhdudiyyətlərin olmaması;
- **Müqavilə azadlığı.** Dövlət-biznes tərəfdaşlığı zamanı tərəflərin azad şəkildə hüquq və məsuliyyətlərinin müəyyən olunması;
- **Ekoloji təhlükəsizlik.** Dövlət-biznes tərəfdaşlığı layihələrinin icrası zamanı ətraf mühitin qorunması ilə bağlı tələblərə əməl olunması.

**Maddə 6. Dövlət-biznes tərəfdaşlığı zamanı dövlətin maliyyə dəstəyi**

**6.1** Dövlət-biznes tərəfdaşlığı layihələrinin həyata keçirilməsi məqsədi ilə dövləti təmsil edən partnyor biznes partnyora dövlət maliyyə dəstəyini təmin edə bilər.

**6.2** Dövlət maliyyə dəstəyi dövlət büdcəsindən, büdcə fondlarından, büdcədənkənar fondlardan və Azərbaycan Respublikası qanunvericiliyi ilə qadağan olunmamış digər vəsaitlər hesabına həyata keçirilə bilər.

**6.3** Biznes partnyora dövlət maliyyə dəstəyi aşağıdakı formalarda da həyata keçirilə bilər:

- Güzəştli şərtlərlə kreditlərin verilməsi;
- Bank təminatının verilməsi;

- Dövləti təmsil edən partnyorun öhdəliklərinin icrası ilə bağlı təminatın verilməsi;

- Tarif subsidiyalarının verilməsi;

- Dövlət-biznes tərəfdaşlığı layihəsinin icrası üçün lazım olan vəsaitlərin bir hissəsinin maliyyələşdirilməsi;

- Vergilərin ödənilməsi ilə bağlı güzəştlərin, müdddətli azadolmaların həyata keçirilməsi;

- Gömrük ödənişlərinin ödənilməsi iə bağlı güzəştlərin, müdddətli azadolmaların həyata keçirilməsi.

**Maddə 7. Dövlət-biznes tərəfdaşlığı zamanı dövlətin iqtisadi dəstəyi**

**7.1** Dövlət-biznes tərəfdaşlığı layihələrinin həyata keçirilməsi məqsədi ilə dövləti təmsil edən partnyor biznes partnyora dövlətin iqtisadi dəstəyini təmin edə bilər.

**7.3** Dövlətin iqtisadi dəstəyi aşağıdakı formalarda həyata keçirilə bilər:

- Lisenziyanın, icazənin alınması zamanı dəstək;

- Biznes partnyora dövlət-biznes tərəfdaşlığı layihəsinin icrası ilə birbaşa bağlı olmayan digər fəaliyyət növlərindən gəlirin əldə olunması, tariflərin toplanılması hüququnun verilməsi;

- Dövlət mülkiyyətində olan əmlakdan istifadə zamanı güzəştli icarə haqqının tətbiqi;

- Azərbaycan Respublikası qanunvericiliyinə zidd olmayan digər dəstəklərin verilməsi.

**Maddə 8. Dövlət-biznes tərəfdaşlığında dövləti təmsil edən partnyorun öhdəlikləri**

**8.1** Dövlət-biznes tərəfdaşlığı haqqında müqaviləyə uyğun olaraq dövləti təmsil edən partnyorun aşağıdakı öhdəlikləri var:

- dövlət-biznes tərəfdaşlığı müqaviləsində nəzərdə tutulan qaydada biznes partnyorun fəaliyyətini həyata keçirməsi üçün əmlakı onun sahibliyinə və ya istifadəsinə təqdim edir;

- dövlət-biznes tərəfdaşlığı müqaviləsinin icrası üçün intellektual mülkiyyətin nəticələrindən istifadə hüququnu biznes partnyora verir.

**8.2** Dövləti təmsil edən partnyor Azərbaycan Respublikası qanunvericiliyinə zidd olmayan digər öhdəliklər də götürə bilər.

**Maddə 9. Dövlət-biznes tərəfdaşlığında biznes partnyorun öhdəlikləri**

**9.1** Dövlət-biznes tərəfdaşlığı haqqında müqaviləyə uyğun olaraq biznes partnyor müqavilədə nəzərdə tutulan obyektin tam ya və qismən maliyyələşməsi, istismarı və ya texniki xidmətlə bağlı öhdəliklərlə yanaşı aşağıdakı öhdəliklərdən birini və ya bir neçəsini götürə bilər:

- layihə sənədlərinin hazırlanması və razılaşdırılması;
- dövlət-biznes tərəfdaşlığı müqaviləsinə uyğun olaraq obyektin tikintisi, quraşdırılması və bərpası.

**9.2** Dövlət-biznes tərəfdaşlığı çərçivəsində obyektin bərpasına yeni texnologiyanın tətbiqi, istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması, modernizasiyası, mənəvi cəhətdən köhnəlmiş, fiziki cəhətdən aşınmış əsas vəsaitlərin yeni, daha məhsuldar avadanlıqlarla əvəz olunması əsasında onun yenidən qurulması, obyektin texnoloji və funksional təyinatının dəyişdirilməsi və ya istismar özəlliklərinin və xarakteristikasının yaxşılaşdırılması aid edilir.

**9.3** Dövlət-biznes tərəfdaşlığı çərçivəsində obyektin istismarına, bağlanımış müqaviləyə müvafiq olaraq, biznes partnyor tərəfindən onun məqsədli təyinatına uyğun istifadəsi, eyni zamanda, məhsulların istehsalı, işlərin görülməsi və xidmətlərin göstərilməsi daxildir.

**9.4** Dövlət-biznes tərəfdaşlığı çərçivəsində obyektə texniki xidmətə, bağlanmış müqaviləyə müvafiq olaraq, biznes partnyor tərəfindən obyektin məqsədli təyinatı üzrə istismarı məqsədilə düzgün, təhlükəsiz və yararlı saxlanılması aiddir.

**9.5** Biznes partnyor dövlət-biznes tərəfdaşlığı haqqında müqavilədən irəli gələn, Azərbaycan Respublikası qanunvericiliyinə zidd olmayan digər öhdəlikləri də üzərinə götürə bilər.

**9.6** Dövlət-biznes tərəfdaşlığı haqqında müqavilədə mülkiyyətin bir tərəfdən digərinə keçməsi nəzərdə tutula bilər.

**Maddə 10. Dövlət-biznes tərəfdaşlığı haqqında müqavilənin icrası ilə bağlı dövlətin səlahiyyətləri**

**10.1** Dövlət-biznes tərəfdaşlığı haqqında müqavilənin icrası zamanı dövlətin səlahiyyətlərinə aşağıdakılar aiddir:

- Azərbaycan Respublikasında dövlət-biznes tərəfdaşlığının əsas inkişaf istiqamətlərinin müəyyən olunması;
- Dövlət-biznes tərəfdaşlığını nəzərdə tutan layihələr üzrə tenderin keçirilməsi və sənədləşdirmə qaydalarına tələblərin təsdiq edilməsi;
- Biznes partnyor tərəfindən dövlət-biznes tərəfdaşlığı ilə bağlı Azərbaycan Respublikası ilə bağlanmış müqavilənin icrasına monitorinq və nəzarətin təşkili;

- Dövlət-biznes tərəfdaşlığı ilə bağlı müqavilənin hazırlanması qaydalarının müəyyən olunması;

- Dövlət-biznes tərəfdaşlığı ilə bağlı müqavilənin icrası zamanı qərarların qəbul edilməsi prosedurlarının müəyyən olunması qaydası;

- Dövlət-biznes tərəfdaşlığı ilə bağlı müsabiqənin keçirilməsi və müqavilənin bağlanması prosedurlarının müəyyən olunması.

**10.2** Əgər bu qanunla başqa hallar nəzərdə tutulmayıbsa, bu maddədə təsbit olunan səlahiyyətlər Azərbaycan Respublikası hökuməti və onun müvafiq icra strukturları tərəfindən həyata keçirilir.

**Maddə 11. Biznes partnyorun qanuni maraqlarının və hüquqlarının təminatı**

**11.1** Dövlət-biznes tərəfdaşlığı haqda müqavilənin qüvvədə olduğu müddətdə Azərbaycan Respublikası qanunvericiliyində müəyyənləşdirilmiş yeni normalar biznes partnyorun müqavilədəki hüquqlarını məhdudlaşdırarsa, o zaman müqavilə tərəfləri biznes partnyorun əməkdaşlıq müqaviləsinin bağlanılması anındakı maliyyə və əmlak maraqlarının təmin edilməsi məqsədi ilə müqavilə şərtlərini dəyişdirə bilərlər.

**11.2** Bu cür dəyişikliyin forma və qaydaları dövlət-biznes tərəfdaşlığı haqda müqaviləyə uyğun olaraq müəyyən edilir.

**11.3** Dövlət-biznes tərəfdaşlığı haqda müqavilədə biznes partnyorun hüquqlarının Azərbaycan Respublikası qanunvericiliyinə zidd olmayan digər təminatları da müəyyən oluna bilər.

**11.4** Azərbaycan Respublikası qanunvericiliyinə dövlətin təhlükəsizliyi və ölkənin müdafiə qabiliyyətinin təmin olunması, konstitusiya quruculuğu, əxlaqi dəyərlər, sağlamlıq, hüquq və qanuni maraqlarının müdafiəsi məqsədi ilə edilmiş dəyişikliklər dövlət-biznes tərəfdaşlığı haqda müqavilədə dəyişikliyə əsas yaratmır.

**11.5** Dövlət-biznes tərəfdaşlığı haqda müqavilə üzrə öhdəliklərin icrası məqsədi ilə biznes partnyor kreditorların vəsaitlərini cəlb edə bilər. Bu zaman dövləti təmsil edən partnyor, biznes partnyor və kreditor arasında tərəflərin qarşılıqlı hüquq və öhdəliklərini, o cümlədən, biznes partnyorun dövləti təmsil edən partnyor və kreditor qarşısında öz öhdəliklərini icra edə bilməməsi ilə bağlı məsuliyyətini müəyyən edən üçtərəfli müqavilə imzalana bilər.

**11.6** Biznes partnyor dövlət-biznes tərəfdaşlığı müqaviləsi çərçivəsində dövləti təmsil edən partnyorun öhdəliklərinin icrası ilə bağlı dövlət orqanlarının, onların vəzifəli şəxslərinin qeyri-qanuni hərəkətləri (hərəkətsizliyi) nəticəsində dəymiş real zərərin və itirilmiş mənfəətin, o cümlədən əldə olunmamış gəlirin qarşılanması üçün iddia qaldıra bilər.

**Maddə 12. Dövlət-biznes tərəfdaşlığı müqaviləsinin müddəti və onun uzadılması**

**12.1** Dövlət-biznes tərəfdaşlığı müqaviləsinin maksimum müddəti 50 ildir.

**Maddə 13. Dövlət-biznes tərəfdaşlığı müqaviləsinin fəaliyyətinin dayanması**

**13.1** Dövlət-biznes tərəfdaşlığı müqaviləsinin fəaliyyəti aşağıdakı hallarda dayanır:

- Müqavilənin müddəti bitdikdə;
- Müqavilənin bütün tərəflərinin qarşılıqlı yazılı razılığı əsasında;
- Müqavilədə nəzərdə tutularsa, bir tərəfin təşəbbüsü əsasında;
- Mübahisələrin həlli məqsədi ilə məhkəmənin qərarı ilə;
- Biznes partnyorun fəaliyyətini dayandırması və ya müflis elan olunması halında.

**Maddə 14. Dövlət-biznes tərəfdaşlığı müqaviləsinin fəaliyyətini dayandırmasının nəticələri**

**14.1** Dövlət-biznes tərəfdaşlığı müqaviləsinin fəaliyyəti dayananda, əgər müqavilədə başqa hallar nəzərdə tutulmayıbsa, biznes partnyor aşağıdakıları etməyə borcludur:

- Dövləti təmsil edən partnyora infrastruktur obyektinin və dövləti təmsil edən partnyor tərəfindən alınmış digər aktivləri təhvil vermək;
- Dövləti təmsil edən partnyorun işçilərini infrastruktur obyektinin istismarı və material-texniki xidmətlə bağlı məsələlərdə hazırlamaq;
- Xidmətlərin fasiləsizliyini təmin etmək üçün əsaslandırılmış müddətdə dövləti təmsil edən partnyoru ehtiyat hissələri və digər resurslarla təmin etmək.

**14.2** Tərəflərdən birinin günahı ucbatından dövlət-biznes tərəfdaşlığı müqaviləsinin fəaliyyətini vaxtında əvvəl dayandırması digər tərəf və ya tərəflərin zərərlərini qarşılamaq öhdəliyini günahkar tərəfin üzərinə qoyur.

**Maddə 15. Qanunun qüvvəyə minməsi**

**15.1** Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev

Bakı şəhəri, 201 -cü il.